"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

# PEDAQOGİKA VƏ PSİXOLOGİYA

**UOT 37.01:39**

**İSMAYIL ƏLİYEV**
"Naxçıvan" Universiteti
i.aliyev@nu.edu.az
**AYTƏN MƏMMƏDOVA**
"Naxçıvan" Universiteti
aytan.n.m@mail.ru

## ETNOPEDAQOGİKA İLƏ BAĞLI ELMİ ANLAYIŞLARIN TƏHLİLİNƏ DAİR

*Məqalədə mədəniyyətlərin qovuşması, iqtisadi maraqların toqquşması, milli mənafelərin qorunmasında çətinliklər yaranması, etnik xüsusiyyətlərin getdikcə daha çox aradan qalxması ilə səciyyələnən müasir dövrdə etnopedaqoji problemlərin araşdırılmasının zəruriliyi əsaslandırılır. Bu məqsədlə etnopedaqogikanın mahiyyətinin və pedaqoji elmlər sistemində yerinin müəyyən edilməsinə diqqət yetirilir.*

*Məqalədə, həmçinin etnopedaqogikanın əsas anlayışlarını müəyyənləşdirməyə cəhd edilir. Bir çox digər humanitar elmlərin də araşdırma obyekti olan, "etnos", "etnik bilik", "etnik mədəniyyət" kimi anlayışların dəqiqləşdirilməsi məqsədilə münasibət bildirilir.*

*Məqalədə "etnopedaqoji biliklər", "etnopedaqoji mədəniyyət" anlayışları aydınlaşdırılır, xalq pedaqogikası və etnopedaqogikanın qarşılıqlı əlaqəsi müəyyənləşdirilir.*

**Açar sözlər:** *etnos, etnopedaqoji mədəniyyət, etnopedaqoji biliklər, xalq pedaqogikası, etnopedaqogika.*

Bəşəri inkişafın obyektiv təzahürlərindən biri kimi meydana gələn qloballaşma müasir həyatın bütün sahələrini əhatə etməkdədir. Müasir cəmiyyətlərin sosial yaşamına dərindən nüfuz edən qloballaşma mədəni inkişafın səviyyəsindən asılı olaraq ölkələrin, xalqların həyatında müsbət və mənfi dəyişmələrə səbəb ola bilir. Mədəniyyətlərin qovuşması, iqtisadi maraqların toqquşması, milli mənafelərin qorunmasında çətinlik yaranması, etnik xüsusiyyətlərin getdikcə daha çox aradan qalxması müasir həyatın xarakterik xüsusiyyətləri kimi qəbul edilməlidir. Bu amillərin getdikcə dərinləşməsi isə xalqların orijinal mədəniyyətlərinin dağılması, etnosların məhv olması təhlükəsi yaradır.

Göstərilən cəhətlərlə yanaşı, qloballaşma bütün xalqların, hətta öz həyati mövcudluğunu itirməkdə olan etnik mədəniyyətlərin belə "silkələnməsinə", oyanışına, dirçəlişinə səbəb oldu. T.Q.Stefanenko bu hadisəni "müasir dövrün

**Məqalə tarixçəsi:**
Göndərilib: 21.02.2019, qəbul edilib: 07.03.2019

etnik paradoksu" adlandıraraq yazır "ayrı-ayrı fərdlərdə və bütöv xalqlarda öz soykökünə maraq keçmiş adət və ənənələrin bərpasından, peşəkar mədəniyyətin folklorlaşdırılmasından, "əsrarəngiz xalq ruhu"nu axtarmaqdan öz milli dövlətçiliyini yaratmaq və ya bərpa etməyədək ən müxtəlif formalarda təzahür edir". (4.)

Milli zəmində münaqişələr, ölkələrarası məhəlli müharibələr nəticəsində maddi sərvətlərlə yanaşı mənəvi sərvətlərin də bir hissəsinin qismən itirilməsi onu göstərir ki, xalq bütövlükdə öz milli dəyərlərinə lazımi səviyyədə sahib çıxmamış, uzun əsrlər boyu yaradılmış zəngin milli-mənəvi dəyərlərdən istifadəni həyati mövcudluğunun ən vacib şərti saymamışdır.

Müstəqil dövlət quruculuğu yolunda aparılan möhtəşəm islahatların qarşıya qoyduğu vəzifələrin təhlili aydın şəkildə göstərir ki, milli mənəvi dəyərlərə bu cür münasibət ənənəvi milli mədəniyyətin, xalq pedaqogikasının, müasir gəncliyin tərbiyəsində onlardan istifadə imkanlarının təhsil işçiləri, tərbiyəçilər və ümumilikdə cəmiyyət tərəfindən lazımınca dəyərləndirilməməsi ilə izah edilə bilər.

Milli heysiyyətini saxlamağa çalışan hər bir xalq etnik mədəniyyətini qorumaq, yaşatmaq, müasir dövrə uyğunlaşdıraraq daha da inkişaf etdirmək barədə fikriləşməyə, həlli yollarını tapmağa çalışmalıdır. Bu məsələdə millətin etnik şüurunun ictimailəşməsinin, etnopedaqoji mədəniyyətə yiyələnməsinin çox böyük rolu vardır.

Etnik şüurun ictimailəşməsi, etnik mədəniyyətin formalaşması problemləri müxtəlif ictimai elmlərlə yanaşı və fikrimizcə, daha ağır xüsusi çəkidə, etnopedaqogika tərəfindən araşdırılmalıdır.

Nə üçün bu problemlərin həllində etnopedaqoji araşdırmaların xüsusi rol oynadığını iddia edirik? Çünki, bütün digər aid elmlər etnosu, etnik birliyi, etnik mədəniyyəti və s. elmi-nəzəri baxımdan araşdıraraq bir həqiqət kimi təqdim edir. Etnopedaqogika isə bu göstərilənlərin insanların, xüsusilə gənc nəslin şəxsiyyətinin formalaşmasında əhəmiyyətini, rolunu və müasir dövrdə tətbiqi yollarını da müəyyən edir.

Hər bir etnosun özünəməxsus etnik keyfiyyətləri orijinal xüsusiyyətlərə malik xalq və millət formalaşmasının da əsasını təşkil edir. Bu xüsusiyyətlərin araşdırılması ilə məşğul olan elmlərdə də millilik əsas amildir. Bu baxımdan etnik xüsusiyyətlərin tədqiqi problemləri ilə məşğul olan etnopedaqogika da milli elmdir; məsələn, Azərbaycan etnopedaqogikası, çuvaş etnoedaqogikası, qazax etnopedaqogikası və s.

"Etnopedaqogika" (əsasən və daha çox) pedaqogikadan yarandığından pedaqogika elminin öyrəndiyi fakt və hadisələri, amma özünəməxsus, spesifik aspektdə tədqiq edir. "Etnopedaqogika" məfhumunun ikinci hissəsinin – "pedaqogika"nın pedaqoji prosesi öyrənən elm olduğu məlumdur. Deməli, etnopedaqogikanın özünəməxsusluğu, fərqli xüsusiyyətlərə malik olması bu məfhumun "etno" hissəsi ilə bağlıdır". (1, 23)

Beləliklə, aydınlaşdırılmalı olan ilk anlayış "etnos"dur. Bəri başdan deyək ki, çox mürəkkəb bir fenomen olan etnosun nə olduğunun bu günə qədər tam elmi izahını vermək mümkün olmamışdır. Tədqiqat obyekti insan cəmiy-

yəti olan bütün elmlər etnos problemini araşdırmağa çalışır və bu zaman hər bir elm öz predmetinə xas olan cəhətlərə üstünlük verir.

Bu yazıda bizim əsas məqsədimiz etnos, onun xüsusiyyətləri, etnik mədəniyyət haqda aparılmış tədqiqatları ümumuləşdirərək araşdırılan problem baxımından dəyərləndirməkdir.

Etnos və etnik birlik anlayışlarına nəzəri baxımdan yanaşılmış ilk tədqiqatlar kimi Avstriya sosioloqu E.Fransisin “Etnos və demos” adlı məqalələr məcmuəsini və Cenevrəli professor Aldo Daminin “Etnik birliyin müəyyən edilməsi” əsərini göstərmək olar. Rusiyada etnos konsepsiyasının müəllifləri N.M.Mogilyanski (1871-1933) və S.M.Şirokoqorov (1887-1939) hesab edilirlər Şirokoqorova görə, “etnos – bir dildə danışan, özlərinin vahid kökə malik olduqlarını qəbul edən, digər insan qruplarından fərqli adət, həyati təməllər, mühafizə edilib həyata keçirilən ənənələr kompleksinə malik insan qrupudur” (17).

Etnos haqda maraqlı bir fikir L.N.Qumilyova məxsusdur. O, etnosa sosial deyil, təbii - coğrafi hadisə kimi baxır. “Etnos – xüsusi daxili quruluşa və orijinal davranış stereotipinə malik olub, özünü digər analoji kollektivlərə qarşı qoyan (“biz” və “özgələr”) bu və ya digər insan kollektividir” (5, 285).

Etnos və etnik birliklər haqda rus filosofu Y.İ.Semyonovun maraqlı fikirləri vardır. O, etnosun əlamətlərindən bəhs edərək göstərir ki, uzun müddət etnosun əsas əlamətləri kimi dil birliyi, ərazi birliyi, iqtisadi həyat birliyi və mədəniyyət birliyində təzahür edən psixoloji təməl götürülmüşdür.

Etnosun əsas əlamətinin dil olduğu bir mənada özünü doğrultsa da (məsələn, rus etnik birliyinin üzvləri rusca danışan yeganə etnosdur. Eləcə də türk, fin, yapon və s. etnoslar), digər tərəfdən bu əlamət ingilislər, ispanlar, almanlar, fransızlara tətbiq edildikdə özünü doğrultmur. Bu dillərin hər birində danışan çoxsaylı etnoslar mövcuddur; məsələn, ispan dilində təkcə ispanlar yox, tamamilə fərqli etnoslar olan meksikalılar, kubalılar, argentinalılar da danışırlar.

Doğrudan da, dil o vaxt etnos üçün mühüm əlamətə çevrilir ki, o mədəni birliyin yaranması və inkişafında mühüm rol oynasın.

Müəllif yuxarıda göstərilən digər əlamətlərin də etnos üçün əsas olmadığını inandırıcı dəlillərlə sübut edərək belə bir qənaətə gəlir ki, “etnos və ya etnik birlik ümumi mədəniyyətə malik, əsasən, eyni dildə danışan, öz kimliklərini tanıyan, həm öz birliklərini (hər şeydən əvvəl yaranma mənşələrinə görə birliklərini), həm də özlərinin digər bu cür insan qruplarından fərqliliklərini dərk edən insanların toplusudur”. (18)

Azərbaycanda “etnos” problemi daha çox etnosiyasi proseslər müstəvisində öyrənilmişdir. Ölkəmizdə yaşayan müxtəlif etnosların problemlərinin tədqiqi, əsasən, XX əsrin 50-ci illərindən başlasa da, bu sahədə ciddi araşdırmalar müstəqillik əldə edildikdən sonra daha elmi xarakter daşıyır. Tədqiqatçı alimlərdən R.Mehdiyev, Ə.Daşdəmirov, V.Abdullayev, Ə.Tağıyev, M.Şükürov, H.Orucov, V.Həbiboğlu, İ.Cəfərzadə, V.Arzumanlı, S.Xəlilov, İ.Ağayev və başqaları milli siyasət, milli münasibətlər və etnosiyasi proseslərin inkişafı

ilə bağlı tədqiqatlarında "etnos" məfhumunun izahına da müəyyən dərəcədə diqqət yetirmişlər.

Məsələn, İ.Ağayevin fikrincə, "etnos dedikdə, ərazicə yayılmaqlarından asılı olmayaraq eyni etnik mənsubiyyətli insanların birliyi nəzərdə tutulur". (2, 18).

Nizami Cəfərov isə xalqı "super etnos" adlandırır: "Azərbaycanlılar bir xalq (super etnos!) olaraq dünyanın sosial-siyasi baxımdan kifayət qədər "narahat" bir coğrafiyasında, min ildən artıq davam edən mürəkkəb etnik proseslərin nəticəsində formalaşmışdır" (3, 5).

Etnos – sosial qruplaşmanın təbii-tarixi inkişaf nəticəsində insanların iradəsindən asılı olmayaraq meydana çıxmış xüsusi növüdür. Etnosun xarakterik cəhəti onun davamlılığıdır; etnos çox uzun əsrlər boyu öz mövcudluğunu qoruyub saxlaya bilən insan qrupudur. Hər bir etnosu digərlərindən fərqləndirən daxili vəhdəti və xüsusi cəhətləri olur. Etnosdaxili vəhdətin möhkəmliyi insanların etnik özünüdərkinin xüsusiyyətlərindən asılıdır. Bu xüsusiyyətlər etnos üzvlərinin həyat tərzinin müxtəlif sahələrində özünü büruzə verir.

Etnosun üç inkişaf mərhələsindən bəhs olunur: subetnos (ilkin etnos da adlandırılır və etnosun hər bir üzvü ayrıca götürülmüş bir subetnosun üzvü olur), sonrakı etnos (subetnos ikinci plana keçir, dialektlərdən biri əsas götürülərək vahid ədəbi dil yaranır), ən son etnos (elitar, şəhər mədəniyyəti yaranır, milli mədəniyyət formalaşır). Bu mərhələdə bütün insanlar subetnosa və etnik qruplara daxil olmadan birbaşa etnos üzvü olurlar.

Etnosun mühüm xüsusiyyətlərindən biri onun üzvləri arasında ünsiyyətin əsas vasitəsi olan dildir. Etnosun mövcudluğunun digər bir əlaməti mədəniyyət birliyidir. Buraya ilk növbədə, yaşayış yerləri, təsərrüfat növləri və avadanlıqları, geyim, qida növləri kimi kütləvi xarakterli maddi mədəniyyəti və adət-ənənələr, xalq sənət növləri, din və s. kimi mənəvi mədəniyyəti aid etmək olar. Etnos üzvlərinin mədəni birliyi onların psixoloji xüsusiyyətləri ilə sıx əlaqədar olur.

Etnos – bioloji bağlılıqla müşayət olunan sosial hadisədir. Fikrimizcə, etnosun əsas əlamətlərinə dil və mədəni birliyi, etnik mənşəyi dərketmə və etnik şüur birliyini aid etmək olar.

Beləliklə bizim qənaətimizə görə, dil, mədəniyyət, adət-ənənə, psixoloji uklad baxımından ümumi xüsusiyyətlərə, etnik mənşəyini dərketmə və etnik şüur ümumiliyinə malik insanların tarixən formalaşmış sabit birlikləri etnos adlandırıla bilər.

Etnosla bağlı anlayışlardan biri də "etnik birlik" anlayışıdır. Mövcud konsepsiyaların təhlili göstərir ki, etnik birliklər anlayışına dil və mədəni birliyin daxil edilməsini əksər araşdırmaçılar qəbul edirlər. Bu anlayışın əhatə etdiyi digər əlamətlər ətrafında isə fikir ayrılıqları mövcuddur. Belə əlamətlərə iqtisadi həyat birliyi və ərazi birliyi daxildir. İqtisadi birlik təkcə etnosun deyil, bütün insan birliklərinin mövcudluğu üçün zəruri şərtdir. İqtisadi birlik və eləcə də ərazi birliyi etnik birliyin inkişafının yüksək səviyyəsi olan millətdən daha çox dövlətə aid olub, etnik yox, siyasi sərhədlərlə müəyyən edilir.

Bu fikri etnosun quruluşu haqda Y.İ.Semyonovun (qeyd edək ki, Semyonovun qənaətinə görə etnos və etnik birlik anlayışları eynidir) dedikləri də təs-

diq edir. O yazır: “Etnos müxtəlif struktura malik ola bilər. O, (1) etnosun müəyyən ərazidə kompakt şəkildə yaşayan əsas hissəsindən ibarət olan etnik nüvədən, (2) bu və ya digər səbəbdən etnosun əsas hissəsindən ayrı düşən nümayəndələrindən ibarət kompakt qruplar – etnik əyalətlərdən və nəhayət, (3) digər etnoslara məxsus ərazilərdə yaşayan etnosun ayrı-ayrı nümayəndələrini əhatə edən etnik diasporadan ibarətdir” (Bax.: 16).

Etnik birliyin müəyyənləşməsi haqda ilk ciddi tədqiqatlardan biri məşhur etnoqraf S.A.Tokaryevin 1964-cü ildə yazılmış “Etnik birliklər problemi” əsəridir. Təxminən, həmin dövrdə V.İ.Kozlovun “Xalqların sayının dinamikası” əsəri də meydana çıxdı. S.A.Tokaryevə görə, “Etnik birlik – insanların elə birliyidir ki, o, soykökü, dil, ərazi, dövlət mənsubiyyəti, iqtisadi əlaqələr, mədəniyyət və din birliyi kimi sosial əlaqələrdən biri və ya bir neçəsinə əsaslanmış olsun” (6, 12)

N.N.Çeboksarovun fikrincə, “etnik birlik dedikdə təkcə xalqlar və etnoslar deyil, həm də bu xalqların hissələrini təşkil edən kiçik qruplar, ümumi mədəni və dil xüsusiyyətlərinə malik olan qohum xalqlar başa düşülməlidir” (3, 92).

Akademik Y.V.Bromley etnik vahidlər kimi müəyyən etnosa xas olan xüsusiyyətləri özündə daha çox, daha aşkar əks etdirən və ictimai inkişafın müstəqil vahidləri kimi çıxış edən insan qruplarını götürür və bu qrupları üç yerə bölür:

1. Elementar etnik vahidlər – bunlar əsas etnik vahidlərin hüdudları daxilində mövcud olan ən kiçik etnik hissələrdir.
2. Subetnik hissələr - əsas etnik vahidlərin tərkib hissələri olub, etnik xüsusiyyətlərin daha az intensivliklə təzahür etdiyi birliklərdir. Belə birliklər etnoqrafik qruplar hesab olunurlar.
3. Makroetnik birliklər – bir neçə əsas etnik vahidi əhatə edən bilriklərdir. Bu birliklər də etnik xüsusiyyətlərin intensivliyinə görə onu təşkil edən etnik vahidlərdən daha az fəaldır (8, 33).

Etnopedaqogikaya dair tədqiqatlarda “etnopedaoji materiallar” və “etnopedaqoji biliklər” anlayışlarına da aydınlıq gətirilməyə cəhd edilmişdir. Professor İ.Əliyevin fikrincə, “etnopedaqogikanın mərkəzi anlayışı “xalq pedaqogikasıdır”… Xalq pedaqogikası özündə üç mühüm etnopedaqoji anlayışı birləşdirir: “xalqın pedaqoji mədəniyyəti”; “xalq tərbiyəsinin əsas amilləri” və “etnopedaqoji materiallar”… “Etnopedaqoji materiallar” anlayışı altında dərin pedaqoji məzmunu və dəyəri olan, sosial həyatın ayrı – ayrı sahələri ilə əlaqədar xalq tərəfindən yaradılmış mədəniyyət nümunələri başa düşülür” (1, 50-51).

Z.A.Xusainovun fikrincə, etnopedaqoji biliklər nağıllarda, əfsanələrdə, nəğmələrdə, tapmacalarda, atalar sözlərində, məsəllərdə, laylalarda, minacatlarda və s. əks olunan, uşaqların təhsil və tərbiyəsində istifadə olunan biliklərdir (19).

Karakanda Dövlət Universitetinin professoru Ş.A.Muxtarova etnopedaqoji biliklər haqda danışarkən yazır: “Biz etnopedaqoji biliklər dedikdə etnosun şəxsiyyətin milli özünüdərkinin, peşəkar – pedaqoji təhsildə isə həm də gələcək müəllimlərin etnopedaqoji səlahiyyətliliyinin (kompetentliyinin) forma-

laşmasına istiqamətlənmiş pedaqoji ənənələrinin xüsusiyyətləri haqqında inteqrasiya olunmuş bilikləri başa düşürük. Etnopedaqoji biliklər özündə həm regionun təbii-iqlim xüsusiyyətlərini, həm də milli-mədəni və tarixi orijinallığını əks etdirir, onların məzmunu böyüyən nəslin vətəndaşlıq, vətənpərvərlik, milli özünüdərkinə istiqamətlənmiş olur”. (10, 146)

Etnopedaqoji biliklərdən bəhs edərkən K.J.Kojaxmetova belə hesab edir ki, etnopedaqoji biliklər üç funksiyanı həyata keçirir:

- onlar reallıq haqda və dünyanın ümumi etnik vəziyyəti barədə təsəvvürlər yaradılmasına xidmət edir;
- bu biliklər insanın praktik və mənəvi fəaliyyətinin istiqamətini müəyyənləşdirməyə xidmət edir;
- etnopedaqoji biliklər qohumluq münasibətlərinin mürəkkəb sistemini, etnososial rolların və bu rolun etnosun subyektləri arasındakı münasibətləri nizamlamasının mahiyyətini, həmçinin mənsub olduğu nəsli dərk etməyə, tanımağa kömək edir. (9)

Deyə bilərik ki, etnopedaqoji bilik haqda ən geniş izah Q.V.Nezdemkovskaya tərəfindən verilmişdir. O, yazır: “Bizim fikrimizcə, etnosların etnopedaqoji biliklərinin məzmununa dünyanın ümumi etnik vəziyyəti və reallıqları haqda; ənənəvi etnik mədəniyyətlərin müxtəlifliyi, spesifikliyi və onların qarşılıqlı təsiri; etnos subyektləri arasında əlaqələrin nizamlanması mexanizmi; insanın əxlaqi davranışının tənzimləyicisi olan ənənələr, adətlər, ayinlər, xalq etiketi, ictimai rəy haqda; ideallar və mənəvi-əxlaqi dəyərlər haqda; genetika haqda; dil haqda; ən ali dəyər olan insan haqda; din haqda; insanın əsas həyati fəaliyyəti olan əmək haqda; bəşəriyyətin evi olan torpaq haqda; insanın təbiətin bir hissəsi olması haqda; əcdadların kultu və nəsillərin varisliyi haqda; əvəzsiz dəyər kimi ailə haqda; qohumluq əlaqələri sistemi haqda; etnososial mühit və etnososial rolların mahiyyəti haqda; ailədə və cəmiyyətdə davranış normaları və qaydaları haqda; insanın özünə, ailə üzvlərinə, başqa adamlara münasibət haqda və s. kimi anlayışlar daxildir” (11, 87).

Göründüyü kimi, tədqiqatçılar etnopedaqoji biliklər anlayışına etnomədəni anlayışların bir hissəsi kimi, regionun təbii-iqlim xüsusiyyətlərini, milli-mədəni və tarixi orijinallığı da əhatə edən pedaqoji ənənələrin xüsusiyyətlərini əks etdirən biliklər kimi baxır. Q.Nezdemkovskaya isə etnosların (və deməli bütövlükdə bəşəriyyətin) təbii, tarixi, mədəni və sosial həyatı ilə bağlı bilikləri etnopedaqoji biliklər adlandırır.

Məsələyə “etnopedaqogika” anlayışının birinci tərkib hissəsi baxımından yanaşdıqda bu fikirə haqq qazandırmaq olar. Yəni etnosla bağlı müxtəlif istiqamətli biliklərin olduğu qəbul ediləndir. Amma bu bilikləri öz predmetlərinə uyğun olaraq müxtəlif elmlər formalaşdırır. Q. Nezdemkovskayanın verdiyi tərifdə, fikrimizcə, “etnopedaqogika” sözünün “pedaqogika” hissəsinə daha çox ağırlıq düşməli idi.

Bu baxımdan bizim fikrimizcə, “etnopedaqoji biliklər” anlayışının təqdimində K.J.Kojaxmetovanın fikirləri əsas götürülməlidir: “... – bu, etnik tərbiyə haqqında xüsusi bir şəkildə dəyişdirilmiş, transformasiya edilmiş bilikdir – bu, elə bir bilikdir ki, onun mahiyyəti konkret etnosun pedaqoji mədəniyyətində idraki və tərbiyəvi əhəmiyyət daşıyır”. (12, 66-69)

Etnopedaqogika ilə bağlı ətraflı izahına ehtiyac duyulan anlayışlardan biri də "etnopedaqoji mədəniyyət"dir. Bu anlayışın ciddi təhlilindən ötrü ümumiyyətlə pedaqoji mədəniyyətin nə olduğu başa düşülməlidir.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən başlayaraq pedaqoji mədəniyyət, gələcək müəllimlərin pedaqoji mədəniyyətinin formalaşması, valideynlərin pedaqoji mədəniyyəti, müasir dövrdə pedaqoji mədəniyyətin xüsusiyyətləri və s. bu kimi problemlərin tədqiqinə çoxsaylı araşdırmalar həsr edilmişdir. Azərbaycan elmi pedaqoji mühitində də bu sahədə tədqiqatlara rast gəlmək mümkündür.

Pedaqoji mədəniyyətin məzmunu və mahiyyəti qısa şəkildə bu cür təqdim edilə bilər:

"Pedaqoji mədəniyyət – mahiyyətcə müəllim, pedaqoq əməyinin tələblərinə cavab verən və onun ən yüksək səviyyədə səmərəliliyini təmin edən şəxsi keyfiyyətlərin və peşə hazırlığının yüksək inkişaf səviyyəsidir" (13, 147)

Tədqiqatçılar pedaqoji mədəniyyətin əsasən dörd inkişaf səviyyəsi barədə danışırlar: peşəkarlığa qədərki, peşəkarlığın başlanğıc səviyyəsi; peşəkarlığın orta səviyyəsi; ali peşəkarlıq səviyyəsi.

Fikrimizcə, ali peşəkarlıq səviyyəsində pedaqoji mədəniyyətə yiyələnə bilməyin ilk və çox mühüm şərti "anadangəlmə" pedaqoji keyfiyyətlərə malik olmaqdır. Yəni ümumi pedaqoji mədəniyyətə bütün struktur vahidlərinə çalışmaqla, təhsil almaqla, öyrənməklə yiyələnmək olar, amma əgər adamda fitrətən öyrətməyə, tərbiyə etməyə həvəs, pedaqoji mərifətin rüşeyimləri yoxdursa, o, pedaqoji mədəniyyətə ali peşəkarlıq səviyyəsində yiyələnə bilməz. Öz şagirdlərini yüksək mənəviyyata malik şəxsiyyətlər kimi yetişdirə bilmək üçün isə pedaqoji mədəniyyətin məhz bu səviyyəsi olmalıdır.

Pedaqoji mədəniyyətin məzmununa aşağıdakıları daxil etmək olar:

- müəllim – tərbiyəçinin pedaqoji meyl və maraqları;
- pedaqoji qabiliyyətlər (bunlar da iki növ olur: sosial-pedaqoji qabiliyyətlər və xüsusi pedaqoji qabiliyyətlər);
- xüsusi pedaqoji hazırlıq;
- pedaqoji ustalıq (pedaqoji texnika, pedaqoji takt, kreativlik, metodik səviyyə və s.)
- şəxsi pedaqoji əmək mədəniyyəti

"Etnopedaqoji mədəniyyət" anlayışını daha ətraflı təqdim etmək üçün həm də "etnik mədəniyyət"in nə olduğuna diqqət yetirilməlidir.

Etnik mədəniyyət hər hansı etnosun, etnik birlik və etnik qrupun milli psixologiyası, adət-ənənələri, etnik mənsubiyyətini dərketməsi və dil birliyinin əsasında formalaşan dəyərlər sistemidir.

Bu iki anlayışın üzvi əlaqəsindən yaranan "etnopedaqoji mədəniyyət"i, təxminən, bu cür başa düşmək lazımdır:

Etnopedaqoji mədəniyyət – hər hansı etnosun milli psixologiyası, adət-ənənələri, etnik müəyyənliyi və dil birliyinə müvafiq olaraq pedaqoji əməyin tələblərinə cavab verən və onun yüksək səviyyədə səmərəliliyini təmin edən şəxsi keyfiyyətlərin və peşə hazırlığının inkişaf səviyyəsinin göstəricisidir.

Bir neçə kəlmə də “etnopedaqogika” və “xalq pedaqogikası” anlayışları barədə.

Xalq pedaqogikası, onun predmeti, vasitələri, üsulları, xüsusiyyətləri elmi-pedaqoji ədəbiyyatda çox geniş bəhs edilmişdir. Biz bu yazıda xalq pedaqogikası və etnopedaqogikanın ümumi və xüsusi cəhətlərindən və qarşılıqlı əlaqəsindən qısaca bəhs etməyə çalışacağıq.

Xalq pedaqogikası, xalq kütlələri tərəfindən gündəlik həyat şəraitinin təsiri altında təlim-tərbiyə sahəsində əldə edilən, empirik biliklərin, məlumatların, bacarıq və vərdişlərin, qaydaların, adət-ənənələrin məcmusudur. Xalq pedaqogikasında dəqiq müəyyən edilmiş qanunlar, sistemləşdirilmiş biliklər, sabit və dəqiq elmi terminlər yoxdur. Bu sahədə hər bir xalqın özünəməxsus psixologiyası yaşayış tərzi, təfəkkür xüsusiyyətləri dominantlıq təşkil edir.

Xalq pedaqogikası elmi dəlillər və sübutlara deyil, tərbiyəvi hərəkətlərin məntiqinə, tərbiyə olunanların psixologiyasına təsirin real nəticələrinə, tərbiyə sahəsində minilliklərin sınağından keçərək təsdiq olunmuş hazır fikirlərə əsaslanır. “Xalq pedaqogikasının gücü nüfuzlu şəxslərin adında, sanballı nəticələrdədir.

Xalq pedaqogikasının (etnopedaqogikanın) “qızıl qaydası” bu cürdür: “tarixi yaddaşsız - ənənələr yoxdur, ənənələrsiz – mədəniyyət yoxdur, mədəniyyətsiz – tərbiyə yoxdur, tərbiyəsiz – mənəviyyat yoxdur, mənəviyyatsız – şəxsiyyət yoxdur, tarixi şəxsiyyətlərsiz – xalq yoxdur”. (G.N.Volkov)

Etnopedaqogika xalq pedaqogikasının ümumiləşdirilməsi, sistemləşdirilməsi, onun qanunları və prinsiplərinin, xüsusiyyətlərinin müəyyən edilməsi barədə nəzəri müddəalar sistemidir. “Xalq pedaqogikası xalq tərbiyəsi təcrübəsinin, ideya və vasitələrinin təsviri ilə məşğul olduğu halda, etnopedaqogika – nəzəri fikir sahəsidir, elm sahəsidir” (İ.T.Oqorodnikov).

“Etnopedaqogika” anlayışını ilk dəfə elmə gətirən G.N.Volkova görə “Etnopedaqogika – gənc nəslin tərbiyəsi üzrə xalq kütlələrinin təcrübəsi haqqında, onların pedaqoji görüşləri haqqında elmdir; məişət pedaqogikası, ailə, nəsil, qəbilə, xalq və millət pedaqogikası haqda elmdir” (14, 5).

Beləliklə, xalq pedaqogikası etnopedaqogika üçün araşdırma materialları verir, etnopedaqogikanın predmetidir. Etnopedaqogika xalq pedaqogikasını izah edir, ondan müasir pedaqoji prosesdə istifadə yollarını göstərir.

Bu baxımdan etnopedaqogikanın predmeti elmi pedaqogikanın predmetinə nisbətən daha genişdir. Çünki o, təkcə məqsədəyönəldilmiş mütəşəkkil təsirləri deyil, həm də “kortəbii baş verən mürəkkəb etnoənənəvi təsirləri” əhatə edir.

Etnopedaqogikanın bir elmi anlayış kimi nəyi ifadə etməsi məsələsi də hələlik öz dəqiq həllini tapmamaışdır. Etnopedaqogikanı pedaqogikanın bir sahəsi, müxtəlif elmlərin (etnoqrafiya, tarix, pedaqogika, folklor, psixologiya və s.) qovşağında yaranan biliklər sahəsi, pedaqogika tarixinin bir sahəsi, müstəqil elm sahəsi kimi qəbul edirlər. Hətta bəzən eyni müəllif bu anlayış altında iki anlamın ifadə edildiyini yazır. Məsələn, son dövrlərdə etnopedaqogika sahəsində sanballı tədqiqatın nəticəsi kimi çox sayda əsərlər yazan Q.V.Nezdemkovskaya 2011-ci ildə nəşr etdirdiyi “Становление этнопедаго-

гики России" (Rusiya etnopedaqogikasının təşəkkülü) adlı əsərində etnopedaqogikanın həm elm olduğunu iddia edir: həmin əsərin birirnci bölməsinin birinci mövzusunun 1.1 maddəsini belə də adlandırır: etnopedaqogika bir elm kimi (15). Həm də onun hələ tam elm kimi formalaşmadığını, elmi-pedaqoji biliklərin aralı sahəsi olduğunu yazır: "Etnopedaqogika təşəkkül mərhələsində olan, elmi-pedaqoji biliklərin nisbətən cavan elmlərarası sahəsidir" (15, 186). Eyni məqalənin digər səhifəsində yenidən yazır: "Etnopedaqogika müstəqil elm kimi XX əsrin 70-ci illərində meydana gəlmişdir". (15, 187)

G.N.Volkova görə etnopedaqogikanın əsas qaydalarından biri belədir: xalq pedaqogikası da xalq tərbiyəsi kimi millidir. İnsan qəlbində milli hiss bütün digərlərindən daha dərin köklərə malikdir. Hər bir xalq yalnız onun özünə məxsus olan tərbiyə sisteminə malikdir. Bu sistemdən kənarda nə milli məktəb mövcuddur, nə də milli ailə.

Bu qaydanın sonuna fikrimizcə, böyük uğurla "nə də əsas obyektləri milli məktəb və milli ailə olan milli pedaqogika".

Yəni bu qayda həm də ona dəlalət edir ki, etnopedaqogikanın milliliyinin şəksiz qəbul edilməsi ümumiyyətlə pedaqogikanın milli olması fikrini dəqiqləşdirir.

Son dövrlər Azərbaycan pedaqoji mühitində hadisə kimi qiymətləndirilən professor Fərrux Rüstəmovun yazdığı "Azərbaycan pedaqogikaşünaslığı" adlı fundamental əsəri elmimizə çox dəyərli töhfə oldu.

Əsərin adı aid olduğu elmin milliliyini isbat edir. Fikrimizcə, həmin əsərin bir dəyəri də Azərbaycan pedaqogika elmini tam bir sistem halında başa düşməyə xidmət etməsindədir.

Mənim qənaətimə görə Azərbaycan pedaqogikaşünaslığı müstəqil araşdırma predmetinə, üsullarına və qanunlarına malik olan üç elmin vəhdətindən ibarətdir: ümumi pedaqogika, pedaqogika tarixi və etnopedaqogika. Yəni etnopedaqogika – müstəqil elm kimi pedaqogikaşünaslığın tərkib hissələrindən biridir.

Son dövrlərə qədər etnopedaqoji tədqiqatlar hər hansı ayrıca götürülmüş bir xalqın tərbiyə sahəsində təcrübəsinin ümumiləşdirilməsindən ibarət olub, təsviri xarakter daşıyırdı. Ayrı-ayrı xalqların pedaqoji irsinin öyrənilməsində müqayisəli araşdırmalar aparılmadığından bu tədqiqatlar demək olar ki, eyni nəzəriyyə və metodologiyaya əsaslanırdı.

Müasir dövrdə Q.N.Volkovun dediyi kimi, etnopedaqogikanın bir sıra istiqamətləri inkişaf edir: tarixi (T.N.Petrova), regional (Ş.M-X. Arsaliyev, A.L.Buqayeva), analitik (Q.N.Volkov), məktəbəqədər (N.S.Aleksandrova), oyun etnopedaqogikası (V.M.Qriqoryev), aforistik etnopedaqogika (Z.B.Çallaqova), ailə etnopedaqogikası (E.İ.Sokolnikova), etnopedaqoji antropologiya (L.K.Raxlevskaya), etnopedaqoji təhsil (M.Q.Xaritonov), etnososial pedaqogika (A.A.Qriqoryeva – Şadina, D.Y.İvanov), müqayisəli etnopedaqogika (B.A.Jetpisbayeva, K.J.Kojaxmetova, V.A.İvanov, L.İ.Fyodorova), subetnik pedaqogika (A.M.Leonov).

Bütün bunlar etnopedaqoji problemlərin hərtərəfli araşdırılmasının müasir pedaqogika elminin inkişafına, tərbiyənin xəlqi, milli əsaslar üzərində

qurulmasına müsbət təsir göstərəcəyini danılmaz edir. Fikrimizcə, Azərbaycan pedaqoji elmi sahəsində də etnopedaqoji problemlərin ciddi araşdırılmasına ehtiyac çoxdur.

### ƏDƏBİYYAT

1. İ.Əliyev. Azərbaycan etnopedaqogikası. Bakı, 2009.
2. İ.Ağayev. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı, 2006.
3. N.Cəfərov. Azərbaycanlılar: etnokultroloji birliyin siyasi-iqtisadi üfüqləri. Bakı, 2001.
4. Стефаненко.Т.Г. Этнопсихология. – М., Институт психологии РАН «Академический проект». 1999 – 320 с.
5. Гумилев Л.Н. Этносфера: история людей и история природы. – М., 1993.
6. Токарев С.А. Проблема типов этнических общностей (к методологическим проблемам этнографии) //Вопросы философии, 1964, № 11.
7. Советская этнография. М., 1970, №3.
8. Бромлей Ю.В. Современные проблемы этнографии. – М., 1981.
9. Кожахметова К.Ж. Казахская этнопедагогика: методология, теория, практика Алтаты. 1998 – 316 с.
10. Мухтарова Ш.М. Теоретическия основы формирования этнического компонента в содержании высшего педагогического образования. Дисс. на соиск док. пед. наук, Каракандо, 2008, - 523 с.
11. Нездемковская Г.В. Генезис этнопедагогики в Росии. Дисс. на соиск. уч. степени док. пед. наук. – М., 2012 – 428 с.
12. Кожахметова К.Ж. Этнопедагогическое знание как предмет методологического исследования//Становление этнопедагогики как отрасли педагогической науки. Мат. межд. научно. прак. конф., 2003. Ч. 1.С. 66 – 69
13. Столяренко А.М. Психология и педагогика. М., 2001. – 423 с.
14. Волков Г.Н. Этнопедагогика. – М., 2000. – 176 с.
15. Нездемковская Г.В. Становление этнопедагогики в Росии.– М., 2011.
16. Семенов Ю.И. Курс лекций по социальной философии. -М., 2003-528 с.
17. www.pravaya.ru/experiments/22669
18. https://www.e-reading.club/chapter//145915/78/Semenov_Kurs_lekciipo-ciocial1 %27noii_filosofii html. Этническая общность или этнос.
19. Хусаинов З.А. Роль этнопедагогических знаний в формировании екологической культуры школьников. //https//Science- pedagogy. ru/ru/ article/view?id=1631

### РЕЗЮМЕ

**ИСМАИЛ АЛИЕВ, АЙТАН МАММАДОВА**

### ОБ АНАЛИЗЕ НЕКОТОРЫХ ЭТНОПЕДАГОГИЧЕСКИХ ПОНЯТИЙ

В статье анализируется важность исследования этнопедагогических проблем.

По утверждению авторов современный мир характеризируется постепенным ослаблением этнических особенностей, столкновением экономических интересов, появлением трудностей в защите национальных интересов. С этой целью уделяется внимание на определение сути и места этнопедагогики в системе педагогических наук.

В статье анализируются и основные понятия этнопедагогики. Авторы уточняют понятия «этническая культура», «этническое знание», «этнос», которые являются и объектом исследования некоторих других гуманитарных наук.

В статье выясняются понятия «этнопедагогические знания», «этнопедагогическая культура», определяются взаимотношения народной педагогики и этнопедагогики.

**Ключевые слова:** этнос, этнопедагогическая культура, этнопедагогические знания, народная педагогика, этнопедагогика.

**SUMMARY**

**ISMAIL ALIYEV, AYTAN MAMMADOVA**

**ANALYSIS OF THE SCIENTIFIC CONCEPTS RELATED TO ETHNOPEDAGOGY**

The article is based on the need to investigate ethnopedagogic problems in modern times, characterized by the contradiction of cultures, the collapse of economic disputes, the difficulties in protecting national interests, and increasingly elimination of ethnic features. For this purpose, attention is paid to the essence of ethnopedagogy and its location in the system of the pedagogical sciences.

The article also tries to define the basic concepts of ethnopedagogy. Many other humanitarian scientists also express their attitude towards the notion of "ethnos", "ethnic knowledge" and "ethnic culture", which are objects of the investigation.

The article defines the concepts of "ethnopedagogical knowledge", "ethnopedagogical culture", the mutual relation of the people's pedagogy and ethnopedagogy.

**Key words:** ethnos, ethnopedagogic culture, ethnopedagogic knowledge, folk pedagogy, ethnopedagogy.